**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**NÜŞABƏ ƏLİ QIZI NURİYEVA**

# YEYİNTİ SƏNAYE MƏHSULLARININ KEYFİYYƏTİNİN İDARƏ OLUNMASININ TƏKMİLLƏŞMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Ixtisas: 5312.01.- "Sahə iqtisadiyyatı"

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı - 2014**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəetməsi və menecment" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor **S.Q. Cümşüdov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor **H.B. Allahverdiyev**

iqtisad üzrə fəlsəfə doktoru, **K.N. Abdullayev**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu**

Dissertasiyanın müdafiəsi 31 _01_ 2014-cü il saat ___ AMEA-nın İqtisadiyyat İnstitutunun nəzdində yaradılmış FD.01.181 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1143, Bakı şəhəri, H.Cavid prospekti, 31, II mərtəbə, AMEA-nın İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə Azərbaycan MEA Mərkəzi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" _______ 2013-cü ildə göndərilmişdir.

**FD.01.181 Dissertasiya Şurasının elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru, dosent** **G.S. Hacıyeva**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Məhsulun (işin) keyfiyyətinin yüksəldilməsi və cəmiyyətin tələbatına uyğunlaşdırılması həmişə insanları düşündürən aktual problem olmuşdur. Çünki yüksək keyfiyyət həm tələbatın ödənilməsi səviyyəsinin yüksəlməsi, nisbətən az məhsulla nisbətən çox tələbatın ödənilməsi, həm də məhsulun istehsalının nisbətən az xərclə başa gəlməsi və səmərəliliyinin yüksəlməsi deməkdir.

Müasir bazar iqtisadiyyatı şəraitində məhsulun keyfiyyətinin yüksəlməsinə tələbat daha da artır. Qloballaşma, informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı, ölkələr arasında ticarət-iqtisadi əlaqələrin genişlənməsi, əmtəə mübadiləsində xarici bazarların rolunun artması, gündən-günə kəskinləşən rəqabət, insanların tələbatının yüksəlməsi məhsulun keyfiyyətinin yüksəlməsi qarşısına yeni tələblər qoyur. Belə şəraitdə nisbətən ucuz başa gəlmiş daha keyfiyyətli məhsullar rəqabətə davam gətirir və özünə alıcılar cəlb edir: ölkələrin, təsərrüfat və müəssisələrin həyat qabiliyyətinə, beynəlxalq və milli nüfuzuna böyük təsir göstərir. Beləliklə, müasir dövrdə məhsulun (işin) keyfiyyəti daim yüksəldilməlidir. Məhz bu səbəblərdən rəqabət mübarizəsi inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə keyfiyyətin yüksəldilməsi üçün xüsusi proqramlar işləyib hazırlamağa, keyfiyyət məsələlərinə həsr olunmuş elmi-tədqiqat işlərini genişləndirməyə, müəssisələrdə əsaslı təşkilati, iqtisadi və tənzimləmə xarakterli işlər görməyə böyük vaxt və vəsait sərf edilir.

Bütün bunlar Azərbaycan şəraitində xüsusilə ona görə vacibdir ki, Azərbaycan "açıq qapı" siyasəti yeridir, Ümumdünya Ticarət Təşkilatına qoşulmaq üçün hazırlıq işi aparır, xarici ölkələrlə ticarət-iqtisadi əlaqələri artır və genişlənir. Lakin müəssisələrin bir hissəsi hələ də keyfiyyətsiz məhsul istehsal etməklə bu mütərəqqi proseslərin inkişafını ləngidirlər. Buna görə də keyfiyyətin yüksəldilməsinin nəzəri və praktiki məsələlərinin tədqiqi xüsusi aktuallıq kəsb edir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan 2020: gələcəyə baxış inkişaf konsepsiyası"nın hazırlanması haqqında sərəncamına əsasən Respublikamızda iqtisadiyyatın davamlı, coxşaxəli, innovasiya yönümlü, rəqabətqabiliyyətli və səmərəli inkişafı üçün qəbul edilən strateji kursun və müvafiq proqramların yerinə yetirilməsi mənafeyi də keyfiyyətin nəzəri və praktiki məsələlərinin tədqiqini vacib vəzifə kimi qarşıya qoyur.

**Problemin öyrənilmə səviyyəsi**. Məhsulun keyfiyyəti, o cümlədən onun idarə edilməsi problemləri xarici ölkə alimlərindən K. İsikava, P. Crosby, E. Deminq, F. Kotler, A. Feyqenbaum, X. Xarinqton, F. Teylor və başqalarının əsərlərində, rus alimlərindən V.Okrepilov, A.Qliçev, V.Oqvozdin, S.İlyenkova, A.Erşov, T.Salimova, V.Lapidus, V.Lixaçev və başqalarının əsərlərində geniş tədqiq olunmuşdur.

Azərbaycanın görkəmli alimləri Ə.Ə. Mahmudov, A.A. Nadirov, Z.A. Səmədzadə, A.K. Ələsgərov, Ə.X.Nuriyev, A.A.Musayev, İ.H. Alıyev, R.P. Sultanova, A.H. Əhmədova, G.Z.Yüzbaşova, R.M.Cəbiyev, S.Q.Cümşüdov, B.X.Ataşov,T.Əliyev, A.B.Abbasov, T.H.Hüseynov və i.a əsərlərində keyfiyyət probleminin tədqiqinə bu və ya digər dərəcədə yer verilmişdir.

Müstəqillik illərində Respublikamızda N.R.Məmmədov, Ə.Ş. İmanov, E.M.Əfəndiyev və başqaları öz əsərlərində keyfiyyətin idarə olunmasının metodoloji əsasları, keyfiyyətin planlaşdırılması, keyfiyyətə nəzarət, standartlaşdırmanın əsasları və s. məsələlərə diqqət yetirmişlər. Lakin yeyinti sənayesində keyfiyyətin idarə olunmasının təşkili, keyfiyyətə nəzarət, keyfiyyətin yüksəldilməsi məsələləri kifayət qədər tədqiq olunmamışdır. Bütün bunlar seçilmiş mövzunun aktual olduğunu bir daha əks etdirir, tədqiqatın böyük nəzəri və praktiki əhəmiyyət kəsb etdiyini və mövzunun tədqiqat obyekti kimi seçilməsinin vacibliyini göstərir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi müasir dövrdə məhsulun keyfiyyətinin idarə olunmasının nəzəri-metodoloji əsaslarının Azərbaycan şəraitinə tətbiqən təhlili və ümumiləşdirilməsi vasitəsilə Respublikanın yeyinti sənayesində məhsulun keyfiyyətinin idarə olunması xüsusiyyətlərini aşkara çıxarmaq, burada mövcud olan çatışmazlıqları aradan qaldırmaq və keyfiyyətin idarə olunmasını təkmilləşdirmək üçün təklif və tövsiyələr hazırlamaqdan ibarətdir.

Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

-Məhsulun keyfiyyətinin mahiyyətinin açılması, keyfiyyətə tarixən yanaşma formaları arasında fərqlərin və oxşar cəhətlərin aşkara çıxarılması;

-Məhsulun keyfiyyətinə yanaşmanın və idarəetmə metodlarının inkişaf mərhələlərinin xüsusiyyətlərinin açılması;

-Müəssisələrdə məhsulun keyfiyyətinin idarə olunmasının təşkilati strukturunun dəyərləndirilməsi;

-Xarici ölkələrdə məhsulun keyfiyyətinin idarə olunması təcrübəsinin təhlili və bu təcrübənin Azərbaycanda istifadəsi imkanlarının müəyyən edilməsi;

-Azərbaycanda keyfiyyətin idarə olunması üçün formalaşmış normativ-hüquqi bazanın dəyərləndirilməsi;

-Respublikanın yeyinti sənayesinin mövcud vəziyyətinin təhlili və əhalinin tələbatının ödənilməsi baxımından qiymətləndirilməsi;

-Yeyinti sənayesi müəssisələrində məhsulun keyfiyyətinin idarə olunmasının təşkilati strukturunun təhlili və burada mövcud olan çatışmazlıqların aşkara çıxarılması;

- Yeyinti sənayesi məhsulunun keyfiyyətinin yüksəldilməsi və idarə olunmasının təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqatın obyekti** kimi Azərbaycanın yeyinti sənayesi seçilmişdir.

**Tədqiqatın predmetini** müasir dövrdə yeyinti sənayesinin inkişafı və məhsulun keyfiyyətinin idarə olunması məsələləri təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsaslarını** iqtisadçı alimlərin müasir dövrdə keyfiyyətin formalaşması və idarə olunmasına dair nəzəri müddəaları və tövsiyələri, Azərbaycan Respublikasında məhsulun keyfiyyətilə bağlı normativ-hüquqi aktları, habelə sosial-iqtisadi inkişafla bağlı dövlət proqramları, ölkə Prezidentinin qərar və sərəncamları təşkil edir.

Dissertasiya işində iqtisadi-statistik, kompleks və sistemli təhlil, müqayisə, ümumiləşdirmə, müşahidə və ekspert qiymətləndirməsi metodlarından istifadə edilmişdir.

**Tədqiqat işinin informasiya mənbəyi** kimi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, İqtisadi İnkişaf və Sənaye Nazirliyinin, Ümumdünya Ticarət Təşkilatı, Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mövzuya aid nəşr olunmuş hesabat materiallarından (məlumatlardan, statistik materiallarından), normativ-hyquqi sənədlərdən, bülletenlərdən, dövrü mətbuat, elmi jurnal, internet materiallarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

-Кейфиййятин мащиййяти ачылмыш вя она верилян тярифляр системляшдирилмишдир.

-Кейфиййятин идаря олунмасына мцасир йанашма формасынын цстцнлцкляри вя чатышмазлыглары ашкара чыхарылмышдыр.

-Гида тящлцкясизлийинин идаря олунмасы цчцн ЩАССР системинин ящямиййятли нязарят механизми олдуьу ясасландырылмышдыр.

-Məhsulun keyfiyyətinin idarə olunması сащясиндя хариъи юлкялярин təcrübəsiндян Azərbaycanda istifadə imkanları müəyyənləşdirilmişdir;

-Respublikanın yeyinti sənayesinin inkişafı вязиййяти təhlil olunmuş və əhalinin tələbatının keyfiyyətli məhsullarla ödənilməsi baxımından qiymətləndirilmişdir;

-Республиканын йейинти сянайесиндя милли вя бейнялхалг стандартларын тятбиги вязиййяти гиймятляндирилмишдир;

-Respublikada yeyinti sənayesinin perspektiv inkişafının ümumi istiqaməti müəyyənləşdirilmişdir;

-Yeyinti sənayesi məhsulunun keyfiyyətinin idarə olunmasının təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələr hazırlanmışdır.

**Tədqiqatın praktiki əhəmiyyəti** ondan ibarətdir ki, işdə formalaşmış tövsiyə, çıxarılmış nəticə, konseptual nəzəri müddəa və ümumiləşdirmələrdən sənaye müəssisələrində məhsulun keyfiyyətinin idarə olunmasının təşkilində, ölkənin sosial-iqtisadi inkişaf, ərzaq təhlükəsizliyi və xarici ticarət siyasətinin işlənib hazırlanmasında, sənaye məhsullarının keyfiyyətini yüksəltmək üçün təşkilati-iqtisadi xarakterli tədbirlər görülməsində, yeyinti sənayesinin inkişaf perspektivlərinin müəyyənləşdirilməsində, elmi-tədqiqat işlərində, ali məktəblərdə "Keyfiyyətin idarə olunması", "Sənaye müəssisələrinin iqtisadiyyatı", "Sahibkarlığın əsasları" fənnlərinin tədrisində istifadə oluna bilər.

**İşin aprobasiyası və nəticələrinin tətbiqi.** Tədqiqat işinin nəticələri, irəli sürülən təklif və tövsiyələr 2004-2013-cü illərdə keçirilmiş Beynəlxalq və Respublika əhəmiyyətli elmi-praktiki konfranslarda iştirakçıların diqqətinə çatdırılmış və müzakirə edilmişdir: 2004-cü ildə Lənkəran Dövlət Universitetində «Azərbaycanın Cənub bölgəsinin təbii ehtiyatlarından istifadə perspektivləri və iqtisadi inkişafı» mövzusunda keçirilən Respublika konfransında, 2009 –cu ildə "Azərbaycan Texniki Universitetinin professor-müəllim heyətinin və aspirantların 54-cü elmi-texniki və tədris-metodiki" konfransında, 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında

"Qlobal maliyyə böhranı və dövlət idarəetmə sistemində antiböhran siyasət: dünya təcrübəsi və Azərbaycan modeli" mövzusunda keçirilən beynəlxalq elmi-praktiki konfransında, 2012-ci ildə Azərbaycan Müəllimlər İnstitutunda "Doktorantların və gənc tədqiqatçıların XVI Respublika elmi konfransı"nda, 2012-ci ildə Azərbaycan Kooperasiya Universitetində "Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi" mövzusunda keçirilən beynəlxalq elmi-praktiki konfransda və digər elmi-nəzəri və praktiki konfranslarda məruzə edilmiş, dövrü elmi nəşrlərdə dərc olunmuşdur.

Tədqiqat işinin nəticələri və aparılmış ümumiləşdirmələr Azərbaycan Respublikasının Prezidenti yanında Dövdət İdarəçilik Akademiyasında "Keyfiyyətin idarə olunması", "Sahibkarlığın əsasları" fənnlərinin tədrisində istifadə olunur (arayış 17.09.2013 tarixində)

**Tədqiqatın əsas nəticələri** 14 elmi məqalə, konfrans materialı və tezis formasında dərc edilmişdir.

**Tədqiqat işinin həcmi və strukturu**. Dissertasiya işi giriş, üç fəsil, nəticə və 141 adda istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla 150 səhifə həcmindədir. İşdə 2 şəkil və 8 cədvəl verilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, öyrənilmə vəziyyəti səciyyələndirilmiş, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, nəzəri və metodoloji əsasları, informasiya bazası, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti şərh olunmuşdur.

Dissertasiyanın **"Bazar iqtisadiyyatı şəraitində məhsulun keyfiyyətinin müəyyən edilməsi və idarə olunmasının nəzəri-metodoloji əsasları" adlanan** I fəsli keyfiyyətin mahiyyəti, müəyyən edilməsi xüsusiyyətləri və bazar iqtisadiyyatı şəraitində yüksəldilməsinin zəruriliyinin əsaslandırılmasına, məhsulun keyfiyyətinin idarə olunmasına yanaşmaların tarixi formalarının, standartlar və onların inkişaf etmiş demokratik ölkələrdə tətbiqi xüsusiyyətlərinin təhlilinə həsr edilmişdir.

Tədqiqat işində müxtəlif aspektlərdən yanaşaraq keyfiyyətin mahiyyətini müəyyən etmək üçün Aristotel, K.İsikava, K.Marks, D.Xarinqton, H.Hegel, C.Curan, U.E.Deminq, Q. Azqaldov və başqalarının müxtəlif fikirləri nəzərdən kecirilmişdir.

İlk baxışdan keyfiyyət çox sadə və hər birimizə aydın olan anlayışdır. Lakin ona düzgün tərif vermək elə də asan deyil, çünki isti-

fadə məqsədlərindən asılı olaraq keyfiyyətə bir çox xüsusiyyətlərdən və aspektlərdən yanaşılır və müxtəlif təriflər verilir.

Hələ 1960-cı illərdə “Keyfiyyət nədir” kitabının müəllifi (Q. Azqaldov “məhsulun keyfiyyəti” anlayışınının 100-dən artıq müxtəlif təriflərinə rast gəldiyini, məşhur Yaponiya alimi K.İsikava “keyfiyyət” anlayışı altında “istehlakçıları real surətdə razı salan xüsusiyyətlərin anlaşıldığı”nı bildirirdi.

İşdə alimlərin “keyfiyyət” anlayışına verdiyi tərifləri təhlil edilmiş və onlar 5 qrupda ümumiləşdirilmişdir.

1) keyfiyyət – üstünlük ifadəsi kimi; 2) keyfiyyət məhsulun xüsusiyyəti kimi; 3) keyfiyyət–təyinata uyğunluq kimi; 4)keyfiyyət-dəyərə uyğunluq kimi; 5) keyfiyyət-standartlara uyğunluq kimi.

Standartlaşma üzrə Beynəlxalq Təşkilat (İSO) biznes və sənaye sahələrində keyfiyyətlə bağlı bütün anlayışları ümumiləşdirərək MC İSO 9000-2001-in son versiyasında keyfiyyət –“məhsulun mövcud xüsusiyyətlərinin tələblərə uyğunluq səviyyəsi” kimi müəyyənləşdirilmişdir.

Keyfiyyətin yüksəldilməsi zərurətini ətraflı təhlil edərək, bu zərurətin başlıca olaraq şəxsi, istehsalat və ictimai tələbatın daim yüksəlməsindən, cəmiyyət həyatının bütün sahələrində ETİ-nin rolunun artmasından, istehlakçıların nisbətən aşağı keyfiyyətli məhsul və xidmətləri qəbul etməməsindən, dünya bazarlarında və daxili bazarda rəqabətin güclənməsindən, müasir dövrdə müəssisənin müvəffəqiyyətli fəaliyyəti üçün vacib faktor kimi rəqabətqabiliyyətliliyin və keyfiyyətin rolunun artmasından və i.a. irəli gəldiyi əsaslandırılmışdır.

Birinci fəsildə məhsulun keyfiyyətinin idarə olunmasına yanaşmanın iki tarixi formasının təhlilinə xeyli yer verilmişdir.

Birinci yanaşmaya əsasən müəssisələrdə məhsulun layihəsinin hazırlanması və istehsal mərhələlərində keyfiyyətin idarə olunmasına və nəzarətə üstünlük verilirdi, lakin nəzarət, məhsulun saxlanma, satış və istehlak mərhələlərini tam əhatə etmirdi. Belə idarəolunma dünyanın bir çox inkişaf etmiş ölkələrində, xüsusilə keçmiş Sovet İttifaqında keyfiyyətin kompleks idarəetmə sistemlərinin (KSUKP) inzibati yolla tətbiqi ilə həyata keçirilirdi. Bu sistemin tətbiqi yüksək keyfiyyətli məhsulların yaranması və uğurla həyata keçirilməsinə şərait yaratdı, yüksək keyfiyyətli məhsulların xüsusi çəkisinin 2-3 dəfə artmasına, yeni məhsulların mənimsənilməsi müddətinin 1,5-2 dəfə azaldılmasına gətirib çıxardı. Həmçinin əməyin məhsuldarlığının və keyfiyyətin yüksəlməsi üçün məsuliyyətin artmasına, itkilərin azalmasına şərait yaratdı. Lakin bu

sistemdə keyfiyyətin idarə edilməsini yalnız layihələndirmə və istehsal mərhələlərində həyata keçirirdilər, məhsulun saxlama, satış, istehlak mərhələlərində keyfiyyətin idarə edilməsi yox dərəcəsində idi.

İkinci, yeni yanaşma isə daha çox bazarın tələbatını nəzərə alır - istehsal dövründə yox, daha çox sonrakı mərhələlərdə nəzarətə diqqət yetirilir. Beləliklə, istehsal yerində keyfiyyətə nəzarət zəifləyir. Nəticədə bazara keyfiyyətsiz mallar daxil olur. Fikrimizcə keyfiyyətə nəzarət və idarəemə fasiləsiz xarakter daşımalı, istehsalın və satışın bütün mərhələlərində həyata keçirilməlidir.

I fəsildə eyni zamanda məhsulun keyfiyyətinin idarə olunmasında Beynəlxalq və Milli Standartların tətbiqinin vacibliyi əsaslandırılır.

Göstərilir ki, standartlaşdırma - məhsullar, işlər, xidmətlərin keyfiyyətini tənzimləmək üçün norma, qayda və xarakteristikaların müəyyənləşdirilməsi və tətbiqi prosesi olub, müştərilərin irəli sürdükləri tələbləri ödəməyə imkan verən menecment sistemini qurmağa köməklik edir ki, bu da öz növbəsində müəssisəyə sabit mənfəət əldə etmək imkanı yaradır.

Bu fəsildə 1994 və 2000-ci il seriyalı İSO 9000 beynəlxalq standartlarının xüsusiyyətləri şərh olunur. Xüsusi vurğulanır ki, İSO 9000 beynəlxalq standartlarının xüsusiyyəti ondan ibarətdir ki, onların tələbləri birbaşa məhsulun keyfiyyətinə yox, müəssisənin məhsulunun (xidmətinin) keyfiyyətinin əvvəlcədən gözlənilən və sabit səviyyədə olmasına təminat yaradan idarəetmə sisteminə yönəldilir. Bu standartların bir çox ölkələrdə tanınmağının əsas səbəbi “menecment keyfiyyət sistemi”nin sertifikatlaşması və beynəlxalq sertifikatın qəbul edilməsindədir. Bu standartlar istehsalçı ilə istehlakçı arasında bazar münasibətlərini tənzim edir, istehlakçıların sadə və onlara aydın olan yolla keyfiyyətin səviyyəsini qiymətləndirə bilmələri üçün beynəlxalq əmtəə mübadiləsini sadələşdirir, keyfiyyətin idarə olunması səviyyəsini yüksəltmək və müvafiq olaraq məhsulun (xidmətin) keyfiyyətini yaxşı tərəfə yönəltmək üçün təşkilatlara kütləvi təzyiq göstərmək mexanizmini yaradır.

İşdə yeyiynti sənaye məhsullarının keyfiyyətinin yüksəldilməsi və qida təhlükəsizliyinin idarə edilməsi üçün ən çox istifadə olunan HACCP (Hazard Analysis and Critical Control Point – Təhlükəli Amillərin Təhlili və Kritik Nəzarət Nöqtələri) sisteminin geniş təhlili verilmiş, bunun qida təhlükəsizliyinin idarə edilməsi üçün mühüm əhəmiyyət kəsb edən, təhlükəli amillərin identifikasiyası, qiymətləndirilməsi və onlara nəzarət mexanizmi olduğu göstərilmişdir.

Beynəlxalq Standartlaşdırma Təşkilatı (International Organization for Standardization (ISO)) HACCP sistemini İSO 22000:2005 "Qida məhsullarının təhlükəsizliyinin idarə edilməsi sistemləri - ərzaq məhsullarının istehsalı zəncirində iştirak edən təşkilatlara qarşı tələblər" adlı beynəlxalq statuslu standart kimi qəbul etmişdir. Bu gün Avropa İttifaqında, ABŞ və Kanadada HACCP-sisteminin yeyinti sənayesində tətbiqi və uyğunluğunun təsdiqlənməsi mütləqdir. Bu ölkələr standartı milliləşdirmiş və özlərinin standartlar bazasına daxil etmişlər. Bu beynəlxalq standart, qida məhsulunun təhlükəsizliyinin idarəetmə sisteminə tələbləri müəyyən edir, eyni zamanda qida məhsulunun təhlükəsizliyinin təmin edilməsi məqsədilə son istehlak nöqtəsinə qədər aşağıda qəbul edilmiş elementləri birləşdirir: interaktiv məlumatlar mübadiləsi; sistemli idarəetmə; ilkin şərtlər proqramı; HACCP prinsipləri.

Dissertasiyada məhsulun keyfiyyətinin idarə olunması sahəsində bir çox ölkələrin təcrübəsi araşdırılır və onların Azərbaycan şəraitində tətbiqi istiqamətləri müəyyənləşdirilir.

Təhlil göstərir ki, hər bir dövlətin keyfiyyətə, keyfiyyətli məhsula yanaşmaq və nəzarət etmək xüsusiyyəti var. Misal üçün, Almaniya, Niderland, Yaponiya və Böyük Britaniyada dövlətin əsaslı yardımı ilə keyfiyyət üzrə milli proqramlar hazırlanır və həyata keçirilir. Bir çox dövlətlərdə (ABŞ, Sinqapur və i.a.) keyfiyyət üzrə xüsusi proqram hazırlanmır. Dövlət keyfiyyət məsələsi qarşıya qoyulan bütün proqramları dəstəkləyir. Bir çox dövlətlərdə keyfiyyət məsələsi müəssisə miqyasında diqqəti daha çox cəlb edir, dövlət belə müəssisələrə yardım göstərir.

Sovetlər İttifaqı dövründə keyfiyyətin idarə olunmasının bütün müəssisələrə aid olan ümumi prinsipləri işlənib hazırlanmışdır. Müəssisələrdə və iqtisadiyyat sahələrində KİOKS (keyfiyyətin idarə olunmasının kompleks sistemi) tətbiq olunurdu.

Ümumi nəticə belədir ki, hər bir ölkənin təcrübəsində əhəmiyyətli cəhətlər çoxdur. Bununla yanaşı Yaponiyada keyfiyyəti idarəetmə təcrübəsi daha maraqlıdır. Burada keyfiyyətə dövlət tərəfindən dəstək və nəzarətə xüsusi önəm verilir.

Məhsulun keyfiyyətinin idarə olunması üzrə Yaponiya təcrübəsini ümumiləşdirərək onun əsas xüsusiyyətlərini qeyd edək: bütün qabaqcıl təcrübə əsasında keyfiyyət problemlərinin ardıcıl və məqsədyönlü həlli; istehlakçıya və onun tələblərinə hörmətlə yanaşmanın tərbiyə edilməsi; məhsulun keyfiyyətinin təmin edilməsində və idarə olunmasında firmanın bütün bölmə və işçilərinin iştirakı; məhsulun həyat silsiləsinin bütün

mərhələlərində keyfiyyət dərnəklərinin geniş şəbəkəsinin səmərəli fəaliyyəti; keyfiyyətə nəzarətin qabaqcıl metodlarından geniş istifadə olunması və i.a.

İri müəssisələrdə məhsulun keyfiyyətinin idarə olunması mexanizmi 2 səviyyədə təşkil olunur: ümumi rəhbərlik və operativ idarəetmə. Keyfiyyətin idarə olunması prosesi və funksiyalarının idarəetmə səviyyələri üzrə paylanmasını bu strukturda vermək olar (şək.1)



***Şək.1*** Keyfiyyətin idarə olunmasının strukturu və funksiyaları

Qeyd: Müəllif tərəfindən tərtib edilmişdir.

Dissertasiya işinin **"Yeyinti sənayesinin inkişafı və keyfiyyətin idarə olunmasının müasir vəziyyətinin təhlili"** adlı II fəslində Azərbaycanın yeyinti sənayesinin mövcud sahə quruluşu, inkişaf səviyyəsi, məhsulun keyfiyyətini yüksəltmək üçün dövlət siyasəti, sənaye müəssisələrində keyfiyyətə nəzarət, standartların tətbiqi vəziyyəti təhlil olunur və bu sahədə mövcud olan çatışmazlıqlar aşkara çıxarılır.

Təhlil göstərir ki, Azərbaycanın zəngin təbii-iqlim şəraiti onun bütün regionlarında hələ uzaq keçmişdə yeyinti sənayesinin müxtəlif sahələrinin yaranmasına və sonrakı illərdə xeyli inkişafına səbəb olsa da, sənayenin digər sahələri kimi bu sahə də yalnız XX-əsrin 70-80-cı illərində öz inikşafının yüksək səviyyəsinə çatmışdır.

1970-1985-cı illərdə yeyinti sənayesi sənayenin ən sürətlə inkişaf edən sahəsi idi. 1984-1985-ci illərdə bir çox yeyinti sənaye məhsullarının (üzüm şərabı, meyvə-tərəvəz konservi, mineral sular, qablaşdırılmış təbii çay və i.a.) istehsalına görə Azərbaycan İttifaq respublikaları arasında birinci-ikinci yer tuturdu. Yüksək keyfiyyət nişanı almış sənaye məhsullarının xüsusi çəkisinə görə (1980-ci ildə 30,3%, 1985-ci ildə 46,4%) Azərbaycanın göstəriciləri SSRİ-nin orta göstəricilərindən (29,8% və 44,7%) xeyli yüksək idi.

Lakin 80-ci illərin ikinci yarısında və 90-cı illərin birinci yarısında məlum səbəblərdən Respublikanın iqtisadiyyatı dərin böhranla üzləşdi və istehsal həcmi kəskin surətdə azaldı.

Ölkə iqtisadiyyatında, o cümlədən yeyinti sənayesində baş vermiş uzun müddətli böhranı aradan qaldırmaq üçün, ümummilli lider Heydər Əliyev tərəfindən iqtisadiyyatda dərin islahatlar aparılması kursu işlənib hazırlandı və 1994-cü ildən həyata keçirilməyə başlandı.

Ölkədə dövlət mülkiyyətinin özəlləşdirilməsi proqramı (1995-1998-ci illər), özəlləşdirmə haqqında, torpaq islahatı haqqında, müəssisə haqqında, sahibkarlığın inkişafı haqqında və b. qanunlar qəbul edildi.

Nəticədə 1997-ci ildə bütövlükdə sənaye davamlı iqtisadi artım və inkişaf yoluna çıxdı. Lakin yeyinti sənayesində böhran nisbətən çox müddət davam etmişdir. 1996-cı ilə nisbətən 1997-ci ildə yeyinti səna-

yesində 22 növ məhsuldan 3-də istehsal həcmi sabit qalmış, 2-də tamamilə dayanmış, 14-də istehsal həcmi azalmışdır.

Göstərilir ki, ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan 1993-cü ildən xarici ölkələrlə əməkdaşlıq etməyə və beynəlxalq standartlar tətbiq etməyə başlamış, keyfiyyət siyasəti işlənib hazırlanmış, 19 sentyabr 1995-ci ildə "İstehlakçıların hüquqlarının müdafiəsi" haqqında qanun qəbul edilmiş, bir çox xarici ölkələrin təcrübəsini də nəzərə almaqla "Azərbaycan Respublikasının Dövlət Standartlar sistemi" hazırlanmış və 1998-ci ildə qəbul edilmişdir. Bu fəsildə həmçinin Prezident İlham Əliyevin rəhbərliyilə müvafiq təşkilatlar, müəssisələr tərəfindən 2003-cü ildən başlayaraq keyfiyyətin yüksəlməsi və istehlakçıların hüquqlarının qorunması istiqamətində görülmüş tədbirlərin geniş təhlili verilmişdir.

Hazırda yeyinti sənayesi istehsal olunan məhsulun həcminə görə içki istehsalı və tütün məmulatları istehsalı ilə birlikdə Azərbaycanın sənaye sahələri içərisində xam neft və təbii qaz hasilatı və mədən çıxarma sənayesindən sonra üçüncü yeri tutur

**Cədvəl 1**

**Respublikada istehsal olunan əsas ərzaq məhsullarının artımı**

| İstehsal olunan əsas ərzaq məhsulları: | İllər | | | | | 2012-nin 2005-ə nisbəti, % |
|---|---|---|---|---|---|---|
| | 2005 | 2008 | 2010 | 2011 | 2012 | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| Ət, min ton | 130,7 | 155,2 | 246,6 | 258,0 | 277,4 | 212 |
| Duz, min ton | 11,2 | 7,5 | 11,6 | 20,9 | 28,6 | 255 |
| O cümlədən əmtəəlik | 11,2 | 7,5 | 4,4 | 5,1 | 5,3 | 56 |
| Yodlaşdırılmış duz, ton | 4,2 | 4,5 | 8,5 | 17,8 | 25,0 | 595 |
| Kolbasa məmulatları, ton | 1,9 | 2,1 | 2,1 | 2,4 | 4,0 | 210 |
| Dondurulmuş bütöv dəniz balığı, ton | 3270 | 1204 | 860,5 | 537,3 | 185,3 | 5,6 |
| Nərə kürüsü, ton | 9,5 | 2,3 | 0,3 | 0,1 | 0,03 | 0 |
| Bitki yağları, ton | 64,1 | 77,9 | 88,7 | 80.0 | 99,8 | 156 |
| Kərə yağı, ton | 14,2 | 14,1 | 20,9 | 21,1 | 21,8 | 160 |
| Marqarin məhsulları, min ton | 17,8 | 15,2 | 20,2 | 21,8 | 23,1 | 130 |
| Pendir və kəsmik, ton | 33,5 | 41,8 | 43,3 | 44,3 | 45,1 | 138 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Un, min ton | 1374 | 1319 | 1320 | 1328 | 1381 | 100 |
| Çörək və çörək-bulka məmulatları, min ton | 985,5 | 1185 | 1162 | 1166 | 1169 | 113 |
| Şəkər və şəkər tozu, min ton | 3,6 | 271,9 | 335,5 | 334,7 | 355,7 | 988 |
| Yağlılıq dərəcəsi 1-3 faiz olan süd, min ton | 494,0 | 599,2 | 812,8 | 813,5 | 820,0 | 166 |

Cədvəl 1-in ardı

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| Yağlılıq dərəcəsi 6-29 faiz olan qaymaq, ton | 1608 | 3995 | 4230 | 4357 | 4460 | 280 |
| Konservləşdirilmiş tərəvəz, meyvələr (balıqlar min ton) | 23,2 | 128,9 | 137,1 | 149,6 | 147,3 | 638 |
| Qənnadı məmulatları, min ton | 42,9 | 43,3 | 43,5 | 45,7 | 46,9 | 110 |
| Dondurma, min ton | 0,5 | 0,6 | 0,4 | 0,8 | 0,4 | 80 |
| Makaron məmulatı, ton | 3,5 | 7,7 | 13,0 | 10,7 | 10,9 | 310 |
| Təbii çay, ton | 7,5 | 7,1 | 10,9 | 11,0 | 10,7 | 140 |
| Brendi (konyak), min dkl | 17,5 | 62,7 | 81,4 | 112,7 | 87,4 | 500 |
| Araq, min dkl. | 484,3 | 748,9 | 884,9 | 820,6 | 696,7 | 144 |
| Şampan şərabı, min dkl. | 61,8 | 35,8 | 27,9 | 19,5 | 26,8 | 44 |
| Pivə, min dkl. | 2490 | 3229 | 3771 | 3904 | 4757 | 190 |
| Üzüm şərabı, min dkl. | 400,5 | 876,9 | 1170 | 754,7 | 1063 | 265,4 |
| Səməni pivəsi, min dkl. | 2490 | 3229 | 3771 | 3904 | 4757 | 191 |
| Şirinləşdirilmiş mineral və qazlı sular, min dkl. | 1160 | 4277 | 5073 | 6050 | 6239 | 538 |
| Alkoqolsuz içkilər, min dkl. | 13361 | 20627 | 19866 | 20978 | 25362 | 189,7 |
| Papiros və siqaretlər, milyon ədəd | 5,0 | 2,7 | 2,2 | 2,0 | 1,8 | 36 |
| Fermentləşdirilmiş tütün, ton | 2,6 | 1,5 | 2,0 | 2,6 | 2,0 | 77 |
| Qarışıq yem, min ton | 0,1 | 3,6 | 4,8 | 4,7 | 16,7 | 167 |

Qeyd: Cədvəl Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 1-dən göründüyü kimi 2005-ci ilə nisbətən 2011-2012-ci illərdə Respublikamızda əsas yeyinti sənaye məhsullarının əksəriyyətinin (ət, duz, yodlaşdırılmış duz, kolbasa məmulatları, şəkər tozu, qaymaq, konservləşdirilmiş məhsullar, makaron məmulatları, brendi, üzüm şərabı, şirinləşdirilmiş mineral və qazlı su) istehsalı sürətlə (2,1-9,9 dəfəyə qədər) artmışdır. Bununla belə bir çox əsas məhsulların (əmtəəlik duz, dondurulmuş bütöv dəniz balığı, şampan şərabı, dondurma və i.a.)

istehsalı azalmış, nərə kürüsü istehsalı isə demək olar ki, dayanmışdır. Bir çox əsas məhsulların artım sürəti çox aşağıdır: marqarin məhsulları-1,3, təbii çay-1,4, qənnadı məmulatları-1,1, çörək, çörək-bulka məmulatları istehsalı- 1,13 dəfə artmışdır. Nəticədə, böyük imkanların olmasına baxmayaraq yeyinti sənaye məhsulunun ümumi artım sürəti nisbətən aşağıdır.

**Cədvəl 2**

**Yeyinti sənaye məhsulunun struktur və idxal-ixrac göstəriciləri**

| Göstəricilərin adı | Illər | | | | |
|---|---|---|---|---|---|
| | 2005 | 2008 | 2010 | 2011 | 2012 |
| Məhsul istehsalında qeyri dövlət mülkiyyətinin payı,%-lə | | | | | |
| Bütün sənayedə:<br>o cümlədən | 70,6 | 80,8 | 77,7 | 80,1 | 80,5 |
| Qida məhsulları istehsalı | 99,9 | 99,98 | 99,95 | 99,98 | 99,98 |
| Içkilər istehsalı | 98,2 | 100 | 99,7 | 99,8 | 99,8 |
| Tütün məhsulları | 100 | 100 | 100 | 100 | 100 |
| Bütün sənaye məhsulunda yeyinti sənayesinin payı, %-lə | | | | | |
| Qida məhsulları | 2,4 | 1,7 | 1,9 | 1,5 | 1,5 |
| İçki istehsalı | 0,86 | 0,5 | 0,7 | 0,6 | 0,5 |
| Tütün məmulatları | 0,36 | 0,08 | 0,08 | 0,1 | 0,06 |
| Mühüm ərzaq məhsullarının idxal-ixracı | | | | | |
| idxalı: növü, ədədlə<br>dəyəri, min dollar | 37<br>391283,6 | -<br>- | -<br>- | 29<br>1182169 | 29<br>1201946 |
| Ixracı: növü, ədədlə<br>dəyəri, min dollar | 19<br>141419,8 | -<br>- | -<br>- | 16<br>607171 | 14<br>713628,7 |

Qeyd: Cədvəl Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

2-ci cədvəldən görünür ki, yeyinti sənayesində istehsal demək olar ki, bütünlüklə (99,9-100%) xüsusi sektorda cəmlənmişdir. Eyni zamanda ümumi sənaye məhsulu istehsalında bu sahənin xüsusi çəkisi azalaraq 2005-ci ildəki 3,62%-dən 2011-2012-ci illərdə müvafiq olaraq 2,2 və 2,06%-ə düşmüşdür. Yeyinti sənaye məhsulu üzrə idxal-ixrac balansını yaxşılaşdırmağa ehtiyac vardır. İdxal olunan məhsul ixrac olunan məhsuldan 2011-ci ildə 1,95 dəfə, 2012-ci ildə 1,7 dəfə çox olmuşdur.

Beləliklə yeyinti sənayesində dövlətin təşkiledici rolunun və məhsul istehsalında dövlət sektorunun xüsusi çəkisinin artırılmasına ehtiyac olduğu aydın görünür.

Sənayenin digər sahələri kimi yeyinti sənayesinin yerləşməsində də uyğunsuzluqlar vardır. Belə ki, yeyinti sənayesi üçün xammalın başlıca olaraq Abşerondan kənar iqtisadi rayonlarda olmasına baxmayaraq hələlik bu sahənin məhsul istehsalında Abşeron iqtisadi rayonu aparıcı yer tutur.

Həm də Abşeron iqtisadi rayonunda olan müəssisələr digər iqtisadi rayonlarda olan müəssisələrdən istehsal həcminə görə orta hesabla 1,8-2 dəfə böyükdür. Bu hesabla Azərbaycanın yeyinti sənayesində istehsal olunan ümumi məhsulun 60%-ə qədəri Abşeron iqtisadi rayonunun payına düşür.

Bu fəsildə yeyinti sənayesində keyfiyyətin idarə olunmasının ətraflı təhlili verilmişdir.

Göstərilir ki, Azərbaycan 2003-cü ildən Benyəlxalq Standartlaşdırma Təşkilatının (İSO) tam hüquqlu üzvü olmuş, MDB çərçivəsində Dövlətlərarası Standartlaşdırma Təşkilatı və Bölgələrarası Standartlaşdırma Birliyi ilə sazişlər imzalanmış və əməkdaşlıq əlaqələri genişləndirilmişdir. İSO-9000 seriyalı keyfiyyəti idarəetmə üzrə beynəlxalq standartların tətbiqini normativ və təşkilati cəhətdən təmin etmək üçün milli auditor və ekspertlərin xaricdə hazırlanması işləri təşkil edilmiş, Azərbaycanın dövlət standartlarının işlənməsi və beynəlxalq standartlara uyğunlaşdırılması üçün Yeyinti sənayesi üzrə Azərbaycan Elmi-Tədqiqat İnstitutunun bazasında Texniki Komitə yaradılmışdır. Britaniya Standartlar İnstitutunun təşkil etdiyi və ən müasir dünya standartlarına cavab verən sınaq laboratoriyası fəaliyyətə başlamışdır.

Metrologiya və patent üzrə Dövlət Agentliyinin Standartlar Fondu müxtəlif kateqoriyalı standartlarla zənginləşdirilmiş, onların istifadə qaydaları sadələşdirilmişdir və xarici standartların Azərbaycan dilinə tərcüməsi üçün tədbirlər görülür.

Azərbaycan Standartlar Fonduna Avropa Birliyinin yeyinti sənayesi üzrə «Kodeks Alimentarius» standartlar məcmuəsi daxil olunub. Onun tərkibində olan 430 standar milli standartımız kimi qəbul edilməkdədir.

Bununla yanaşı regionların inkişafı üzrə Dövlət Proqramlarında (2004-2008-ci və 2009-2013-cü illər) və digər proqramlarda keyfiyyətin yüksəlməsinə və məhsulun rəqabət qabiliyyətinin artmasına aid vəzifə-

ləri yerinə yetirmək üçün çoxsaylı xüsusi metodiki vəsaitlər («Taxıl məhsullarının keyfiyyətinin idarə edilməsinə dair Məlumat Kitabçası», «Alkoqolsuz içkilərin keyfiyyətinin ekspertizasının əsas istiqamətlərinə dair Məlumat kitabçası», «Süd və süd məhsullarının keyfiyyətinin idarə edilməsi», «Taxıl-un məhsullarının ekspertizası», «Çörəkbişirmə müəssisələrinin istehsalat laboratoriyaları barədə təlimat», «Balıq və digər dəniz məhsullarının əmtəəşünaslığı və ekspertizası».) və s. hazırlanaraq sahibkarlıq subyektlərinə paylanmışdır.

İstehlak mallarının keyfiyyətinə nəzarətin gücləndirilməsi üçün Bakı şəhərində və ölkənin digər regionlarında, o cümlədən Cəlilabad, Naxçıvan, Gəncə, Xaçmaz, Şəki, Saatlı və digər şəhərlərdə yüksək maddi-texniki bazaya və kadr potensialına malik müasir tipli laboratoriyalar yaradılmışdır.

Reklam sifarişi, istehsalı və yayımı bazarında rəqabət vəziyyətinin öyrənilməsi və haqsız rəqabət hallarının qarşısının alınması məqsədilə mütəmadi olaraq televiziya kanallarında yayımlanan, internet saytlarında, nəqliyyat vasitələrinin üzərində yerləşdirilən reklamların monitorinqi aparılmışdır. Alınan məlumatlar ətraflı təhlil olunmuş və qanun pozuntusuna yol verən təsərrüfat subyektlərinə icrası məcburi olan göstərişlər verilmişdir.

Dövlət Proqramında Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinə həvalə edilən metrologiya, keyfiyyəti idarəetmə, sertifikatlaşdırma və sənayedə xüsusi mülkiyyətdə olan obyektlərin qeydiyyatı və mühafizəsi sahəsində işlər görülmüşdür.

Özlərinin sifariş məktubları əsasında təkcə 2008-ci ildə 92 müəssisə Dövlət Reyestrinə salınmış və fəaliyyəti rəsmən tanınaraq akkreditasiya attestatı verilmişdir. Onlardan 40-ı yeyinti və kənd təsərrüfatı müəssisələridir.

Agentlik tərəfindən 2010-2011-ci illərdə aqrar-sənaye sektoruna daxil olan bir sıra müəssisə və təsərrüfat qurumlarında istehsal olunan məhsulların normativ sənədlərin tələblərinə uyğunluğu yoxlanmış, kolbasa məmulatları, süd və süd məhsulları, alkoqollu və alkoqolsuz içkilər, meyvə şirələri, çörək və un, qənnadı məmulatları istehsal edən çoxsaylı müəssisələrdə, xüsusilə kiçik müəssisələrdə hazır məhsulların qablaşdırılmasında, markalanmasında ciddi nöqsanlara yol verildiyi, etiketlərdə istehsalçı müəssisənin adı, ünvanı, məhsulun adı, istehsal tarixi və normativ sənədin işarəsi qeyd edilmədiyi aşkarlanmışdır. Nəti-

cədə bir cox məhsulların istehsalı və satışı dayandırılmış, məhsula qarşı iradnamə yazılmış və i.a.

Eyni zamanda ərzaq məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin müasir üsul və metodlarının tətbiqi məqsədilə Agentlik tərəfindən bir sıra xarici ölkələrdə istehsal olunan müasir laboratoriya avadanlığı alınmış, bu avadanlıqlardan məhsullarda bir sıra toksiki elementlərin, mikroorqanizmlərin, qarışıq olan və radioaktiv elementlərin, həmçinin insan həyatı və sağlamlığı üçün təhlükəli maddələrin mövcudluğunun aşkara çıxarılması üçün istifadə olunur.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 113 nömrəli "Antiinhisar siyasəti və istehlakçıların hüquqlarının müdafiəsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi haqqında" Fərmanına əsasən ölkə iqtisadiyyatında inhisarçılığın qarşısının alınması və haqsız rəqabətə qarşı mübarizənin gücləndirilməsi, habelə istehlakçıların hüquqlarının müdafiəsi sahəsində dövlət idarəetməsinin təkmilləşdirilməsi məqsədilə İqtisadi İnkişaf və Sənaye Nazirliyinin yanında Antiinhisar Dövlət Xidməti və İstehlak Bazarına nəzarət üzrə Dövlət Xidmətinin bazasında Azərbaycan Respublikasının İqtisadi İnkişaf və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti yaradılmışdır.

İstehlak Bazarına Nəzarət üzrə Dövlət Xidməti istehlak bazarını keyfiyyətsiz və insan sağlamlığı üçün təhlükə törədə biləcək mallardan qorumaq məqsədilə nəzarət tədbirlərini həyata keçirir. Bu qurumun 2010-2011-ci illərdə ərzaq malları mağazalarında apardığı yoxlamaların nəticəsində xəstə, öləndən sonra kəsilmiş heyvan ətinin satılması, pörtlənmiş mal əti konservlərinin tərkibində toksiki elementlərin normadan artıq olduğu, məhsulun reklamında göstərilən keyfiyyətlə onun həqiqi keyfiyyəti arasındakı kəskin fərq olduğu, vaxtı keçmiş ət, ət və süd məhsulları, şəkər, bal, qənnadı məhsulları satıldığı aşkarlanmış və müvafiq tədbirlər görülmüşdür: məhsul satışdan çıxarılmış, məhsulların istehsalı dayandırılmış, cərimə olunub və i.a. Ümumiyyətlə monitorinqi keçirilmiş 736 ticarət obyektinin 638 –də qanun pozuntusuna yol verilmişdir.

Beləliklə, hər iki təşkilat (İqtisadi İnkişaf və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti və Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi) tərəfindən aparılmış nəzarət, görülmüş tədbirlər mühüm iqtisadi nəticələr vermiş, dövlətin iqtisadi əsaslarını daha da möhkəm-

ləndirmiş və mövcud sosial-iqtisadi problemlərin, o cümlədən işgüzar fəallığın artması, qeyri-neft sektorunun, infrastruktur sahələrin, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, yoxsulluğun azaldılması, ərzaq təhlükəsizliyinin təmin olunması və digər məsələlərin həlli istiqamətində daha təsirli tədbirlərin həyata keçirilməsi üçün imkanları genişləndirmişdir.

İşdə yeyinti sənayesinin təşkilati-idarəetmə strukturu da nəzərdən keçirilmişdir. Azərbaycanın yeyinti sənayesinin təşkilati-idarəetmə strukturu kənd təsərrüfatı xammalının istehsalı və emalı, köməkçi-xidmətedici sahələrə aid müəssisələrdən ibarətdir. Təşkilati-idarəetmə baxımından həmin müəssisələr, iri şirkətlər, səhmdar cəmiyyətləri halında birləşmiş iri müəssisələrə və xüsusi tabelikdə olan nisbətən kiçik müəssisə və sexlərə bölünür. Hər halda istehsal edilən məhsulun əksər hissəsi "Azərsun Holdinq" və "Gilan Holdinq" kimi iri şirkətlərin payına düşür. Bunlar tədricən xammal istehsalı, satışı, tədarükü, emalı, hazır məhsul satışı, köməkçi və xidmətedici məhsulların istehsalı və satışını özündə birləşdirən nəhəng kombinat xarakteri daşıyır. Bu xüsusiyyətlər həmin iri şirkətlərə istehsalın səmərəliliyini, məhsulun və xidmətin keyfiyyətini yüksəltməyə, müasir dövrdə qarşıya çıxan problemlərin həllinə kömək edir.

Bu iri yeyinti sənaye müəssisələri artıq daxili bazarla yanaşı, xarici bazarda da kifayət qədər yer tuta bilmişlər.

"Gilan holdinq"in tərkibində Qəbələ rayonunda fəaliyyətə başlamış 13 hektar ərazisi olan "Qəbələ konserv zavodu" Qafqaz regionunda analoqu olmayan ildə 70000 ton meyvə emalı, 210 000 ton meyvə şirəsi istehsal etmə gücünə malik, avadanlıqları İtaliyanın "Padovan" firması tərəfindən quraşdırılan, müasir texnologiyalı müəssisədir. Zavodda yüksək keyfiyyətli dünya standartlarına cavab verən konsentrat, püre, mürəbbə, cem, turşu, və meyvə şirəsi istehsal edilir. Bu gün hamının yaxşı tanıdığı "Jalə"və "Zolotoy sad" şirələri də məhz bu zavodda istehsal edilir.

"Azərsun holdinq" şirkətində müəssisələr dörd istiqamətdə fəaliyyət göstərir - qida istehsal müəssisələri, kənd təsərrüfatı müəssisələri, satış və ticarət şirkətləri, qablaşdırma və kağız sənaye müəssisə-ləri. Qida istehsal müəssisələri özündə doqquz müəssisəni cəmləşdirir.

Qeyd etdiyimiz holdinqlərdə keyfiyyətə nəzarət əsasən İSO standartları üzərində qurulur. Belə ki, Gilan Qəbələ konserv zavodunda ISO 9001:2008, ISO 14001:2004, HACCP, ISO 22000:2005 standart-

larına uyğun idarəetmə sistemləri qurulub. Hazırda bu sistemlərin təkmilləşdirilməsi ilə bağlı konserv zovodunda yeni layihə həyata keçirilir.

"Azərsun Holdinq"ə aid müəssisələrdə (misal üçün: Xaçmazda, Lənkəranda, Biləsuvarda) istehsal olunmuş məhsulların fiziki, kimyəvi və mikrobioloji analizlərinin keçirilməsi üçün müasir ölçü və sınaq avadanlıqları ilə təchiz edilmiş İstehsalat Sınaq Laboratoriyaları fəaliyyət göstərir. Laboratoriya bölməsinin əməkdaşları yüksək ixtisaslı, təcrübəli işçilərdən təşkil olunmuşdur. Nəzarət edilən bütün məqamlar yerli qanunvericiliyə və İSO 9001:2000 standartlarına əsaslanmaqla qeydiyyata alınır. İSO22000 istiqamətində də mühüm işlər görülmüş və halhazırda davam etməkdədir. Müəssisə işçilərin təcrübələrinin artırılması üçün müxtəlif mövzuları əhatə edən tədris layihələri də həyata keçirir. Bu iş təcrübəli mütəxəssislər tərəfindən təşkil edilir.

Qeyd etmək lazımdır ki, müəssisələrdə aşkarlanmış çatışmazlıqlar və nöqsanların aradan qaldırılması nəticəsində Avropa İttifaqı ölkələrinə ixrac üçün "təsdiqedici kod" nömrəsinin verilməsi artıq gerçəkləşməkdədir.

Dissertasiya işinin III fəsli "Y**eyinti sənayesinin perspektiv inkişafı və məhsulun keyfiyyətinin idarə olunmasının təkmilləşdirilməsi istiqamətləri"nə həsr edilmişdir.**

Yeyinti sənayesinin inkişaf istiqamətlərini müəyyən edərkən, bir tərəfdən Respublikamızın daxilində və bütün dünyada keyfiyyətli ərzaq məhsullarına getdikcə artan tələbat, digər tərəfdən ölkəmizin hər bir iqtisadi rayonunda bu sahənin inkişafı üçün mövcud olan geniş imkanlar, tarixən toplanmış zəngin təcrübə və bu imkanlardan səmərəli istifadə etmək zərurəti nəzərə alınmışdır.

Kifayət qədər əlverişli iqlim şəraiti, tarixən toplanmış zəngin təcrübə, bol günəş enerjisi, məhsuldar torpaqlar, kifayət qədər su ehtiyatının olması, Respublikamızda heyvandarlıq, taxılçılıq, üzümçülük, meyvə-tərəvəz, çayçılıq, sitrus bitki məhsulları istehsalı və emalının bütün sahələrinin gələcək inkişafı üçün əlverişli şərait yaradır.

Problemin həllinə belə yanaşaraq və həmin şərtləri nəzərə alaraq hər bir iqtisadi rayonda yeyinti sənayesinin perspektiv inkişafında üç ümumi istiqamət müəyyənləşdirilir:

1) XX əsrin 70-80-cı illərində tikilmiş və məlum səbəblərdən 90-cı illərdə fəaliyyəti dayanmış müəssisələrin yerində buna imkan olan hallarda (yerli xammal, kadr təminatı) yeni texnologiya əsasında yeni müəssisələrin yaradılması;

2) Müstəqillik illərində tikilmiş müəssisələrin istehsal gücündən istifadə səviyyəsini yüksəltmək;
3) Kənd təsərrüfatının inkişaf etdirilməsi və onun xammalının emalına əsaslanan yeni yeyinti sənaye müəssisələrinin tikilib istifadəyə verilməsi.

Bu baxımdan Azərbaycanda üzümçülük-şərabçılıq, çayçılıq-çay emalı, meyvə-tərəvəz konservi, meyvə şirələri, taxılçılıq və onun məhsulunun emalı, zeytun-zəfəran istehsalı daha perspektivlidir. Bununla yanaşı digər yeyinti sənaye sahələrinin inkişafı üçün geniş imkanlar olduğu da inkar edilməzdir (heyvandarlıq məhsulları, gül yağı və mürəbbəsi, bal, duz, balıqçılıq və i.a.)

İqtisadi rayonlarda ərzaq məhsulu istehsalı və yeyinti sənayesi sahəsində mövcud imkanlardan səmərəli istifadə etmək və bu sahələri inkişaf etdirmək üçün aşağıdakılar təklif olunur:

Strateji əhəmiyyət kəsb edən, ərzaq təhlükəsizliyilə bağlı olan bir çox kənd təsərrüfatı məhsullarının tədarükü üçün dövlətin istehsalçılarla müqavilələr bağlanması, nəticədə bunların istehsal, emal və satışına etibarlı təminat yaratması; kənd təsərrüfatı məhsullarının bir hissəsinin istehsalı, tadarük və emalının təşkilini dövlətin öz üzərinə götürməsi, yaxud da kiçik və fərdi təsərrüfatların istehsal-satış kooperasiyasını yaratmaq, yaxud belə kiçik müəssisə və sexləri böyük müəssisələrin filiallarna çevirmək və onlar arasında ixtisaslaşma aparmaq və bu yolla kiçik müəssisələrin böyük müəssisələrin nəzarəti altına keçməsinə və xarici bazara çıxış imkanlarının genişlənməsinə nail olmaq.

İşdə müəssisələrdə və bütün yeyinti sənayesində məhsulun keyfiyyətinin idarə olunmasının təkmilləşməsi, bu sənaye sahəsinin xarici bazarda özünə layiq yer tutması, daxili bazarın qorunması, yüksək mənfəət əldə edilməsinin başlıca vasitəsi kimi əsaslandırılır və aşağıdakılar təklif olunur:

- Xarici və yerli bazarlarda hazırda sahib olduqları mövqeyin möhkəmlənməsi, yeni bazarların əldə olunması istiqamətində marketinq işlərinin genişləndirilməsi; Respublikanın "Mərdəkan Broyler", "Azersun Holdinq" in "Bakı yağ və qida" fabrikində və digər müəssisələrdə bu sahədə toplanmış əhəmiyyətli təcrübənin yeni şəraitə uyğun, yaradıcı formada davam etdirilməsi və təbliği;
- Regionlarımızda yaxın gələcəkdə nisbətən sürətlə inkişafı, məhsulunun ixracı nəzərdə tutulan üzüm, çay, meyvə-tərəvəz, tütün istehsalı və emalı ilə əlaqədar iri müəssisələrdə keyfiyyətin yüksəlməsinə

birinci növbədə diqqətin artırılması; İri müəssisələrdə məhsulun keyfiyyətinin standartlara uyğunluğuna nəzarət laboratoriyalarının işinin yaxşılaşdırılması, keyfiyyətə nəzarət üzrə kadr hazırlığının gücləndirilməsi;

- Müəssisələrdə yüksək keyfiyyət göstəriciləri olduğunu təsdiq edən sertifikatların alınmasına xüsusi fikir verilməsi;

- Məhsulun keyiyyətinin texniki və texnoloji yeniliklərdən çox asılı olduğunu nəzərə alaraq tətbiq olunan maşin və mexanizmlərin, cihazların, texnoloji proseslərin keyfiyyətinin yüksəldilməsinə diqqətin artırılması;

-Respublikamızda yeni inkişaf mərhələlərinin tələblərinə uyğun olaraq 1995-1997-ci illərdə formalaşmış, 1998-ci ildə nəşr olunmuş Dövlət standartlar sisteminin təkmilləşməsi, məhsulun keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəlməsi tələblərinə uyğunlaşdırılması. Keçən illər ərzində standartların bəzilərində dəyişikliklər edilmiş, beynəlxalq tələblərə, dəyişən şəraitə uyğunlaşdırılmış olsa da bunlar keyfiyyətin yüksəlməsi tələblərini tam əhatə etmir. Xüsusilə respulikanın rayon və şəhərlərində əhalinin yerli tələbatının ödənilməsi üçün istehsal edilən məhsulların keyfiyyəti qarşısında yüksək tələblər qoyulmalıdır;

- İşdə “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi, ərzaq məhsullarının təhlükəsizliyi və keyfiyyətinə nəzarətin gücləndirilməsi istiqamətində aşağıdakı tədbirlərin həyata kecirilməsinin davam etdirilməsi məqsədəuyğun sayılır:

-Yeyinti məhsullarının sertifikatlaşdırılması sisteminin beynəlxalq təcrübəyə, o cümlədən Avropa İttifaqının qanunvericiliyinə uyğunlaşdırılmasının başa çatdırılması;

-Yeyinti məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarət üzrə beynəlxalq standartlara uyğun mərkəzi qida laboratoriyasının yaradılması;

-Genetik modifikasiya olunmuş orqanizmlərin və onların törəmələrinin dövriyyəsinə nəzarətin gücləndirilməsi;

- Uşaq qidalarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi;

- Ərzaq məhsullarının təhlükəsizliyinin beynəlxalq tələblərə uyğunlaşdırılması üçün sanitar-epidemioloji nəzarət orqanlarının maddi-texniki bazasının gücləndirilməsi;

- Dövlət sərhədinin bütün buraxılış məntəqələrində sanitariya və karantin mühafizəsi üzrə tədbirlərin müasir tələblər səviyyəsində təşkili.

- Gömrük laboratoriyaları şəbəkəsinin genişləndirilməsi;

- Yeyinti məhsullarının istehsalı, emalı, daşınması, saxlanması və satılması zamanı məhsulların keyfiyyəti ilə bağlı müvafiq qanunvericiliyin pozulması hallarına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi;

-Məhsulun rəqabət qabiliyyətini yüksəltmək, müflisləşmə riskini azaltmaq və müəsssənin dayanıqlı maliyyə vəziyyətini təmin etmək üçün böyük müəssisələrdə "Keyfiyyət menecment sistemi"nin tətbiq edilməsi.

- Qanunvericilikdə müəyyən boşluqları aradan qaldırmaq, inzibati rıçaqların gücləndirilməsi, cərimələrin artması ilə yanaşı, iqtisadi rıçaqlardan və bazar elementlərindan daha çox istifadə olunması;

- İstehlakçıların maarifləndirilməsinin gücləndirməsi üçün, onların hüquqları ilə bağlı məsələlərin orta məktəblərdə və ali təhsil müəssisələrində tədris olunması, televiziya verlişləri hazırlanması və i.a.;

- Keyfiyyətə nəzarət kompleks xarakter daşımalı, ticarət, istehlak müəssisələrilə yanaşı istehsal müəsssələrində də keyfiyyətə nəzarətin gücləndirilməsi;

- Hazırda məhsulun keyfiyyətinə nəzarət üzrə xüsusi strukturlar, təlimatlar, ancaq böyük müəssisələrdə mövcuddur. 3-5 nəfər və daha çox işçisi olan hər bir kiçik müəssisədə məhsulun keyfiyyətinə xüsusi cavabdehlik daşıyan bir nəfərin (iqtisadçı, mühəndis, proqramist) olması və bununla da keyfiyyətin yüksəlməsinə ilkin zəmin yaradılması;

- İstehsal və satış prosesində çalışan işçilərin keyfiyyətin təmin edilməsi üçün, mükafatlandırma sisteminin təkmilləşdirilməsi;

- Yeyinti sənaye məhsulunun keyfiyyətinin onun istehsal olunduğu xammaldan çox asılı olduğunu nəzərə alaraq, onların (üzüm, meyvə, tərəvəz, bostan məhsulları) vaxtından əvvəl yığılmasının məhdudlaşdırılması;

Məlumdur ki, bütün dünyada olduğu kimi Respublikamızda da süni uşaq qidalarına tələbat günü-gündən artır. "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na (2008-2015-ci illər) uyğun olaraq uşaq qidalarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi vacibdir. Bu baxımdan narahatlıq doğuran məsələlərdən biri genetik modifikasiya olunmuş (GMO) mənşəli ərzaq məhsullarının istehsalının və dövriyyəsinin çoxalmasıdır. Göz oxşayan görünüşləri və istiyə, soyuğa davamlılığı olsa da,

bu məhsullar əsasən sonsuzluq, allergiya, piylənmə, hormonal dəyişikliklər, xərçəng kimi xəstəliklərə gətirib çıxardır.

1997-ci ildə Milli Məclis tərəfindən qəbul edilmiş "Toxumçuluq haqqında" Qanunun 27-ci maddəsi ilə genom mənşəli bitkilərin toxumlarının idxalı qadağan olunmasına baxmayaraq bu gün ölkəyə genetik modifikasiya olunmuş ərzaq məhsulları ilə yanaşı, geni dəyişdirilmiş bitki növlərinin toxumları da gətirilir.

GMO-lu bitkilərdən yığılan toxum bitmir və fermerlər yenidən toxum almalı olurlar. Belə hallar milli istehsalın azalmasına, yerli kənd təsərrüfatı məhsullarının növlərinin itməsinə gətirib çıxarır. İşdə bu kimi problemlərin yaranmaması üçün toxumçuluq sənayesini inkişaf etdirmək, bu sahədə Respublikada (Tovuzda, Gədəbəydə və digər rayonlarda) iri toxumçuluq təsərrüfatlarının yaranması təcrübəsini yeni şəraitə uyğun bərpa etmək təklif olunur.

Dissertasiyada aparılmış tədqiqat, verilmiş təklif və tövsiyyələr onun nəticə hissəsində ümumiləşdirilmişdir.

**Dissertasiya işinin əsas məzmunu müəllifin dərc olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. Məhsulun keyfiyyətinin yüksəldilməsinin regional məsələləri. /«Azərbaycanın Cənub bölgəsinin təbii ehtiyatlarından istifadə perspektivləri və iqtisadi inkişafı» mövzusunda Respublika konfransının (Lənkəran Dövlət Universiteti, 05-06 noyabr 2004-cü il) materialları, səh.43-45;
2. İSO 9000 beynəlxalq keyfiyyət standartları: mahiyyəti, inkişaf mərhələləri, idarə olunma prinsipləri və onların Azərbaycanda tətbiqi məsələləri. //Milli iqtisadiyyatın problemləri (məqalələr toplusu, IV buraxılış). AMEA-nın iqtisadiyyat İnstitutunun əsərləri. Bakı, "Elm", 2007, səh.80-86;
3. Ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin sənaye məhsulunun keyfiyyətini yüksəltmək siyasəti. /"Ümummilli lider Heydər Əliyevin ideyaları cəmiyyətimizin inkişafı üçün əbədi meyardır" mövzusunda aspirant və dissertantların VII elmi konfransının materialları, Bakı, "Mütərcim", 2008, səh. 139-143;
4. Regionda məhsulun (xidmətin) keyfiyyətinin idarə olunması və onun təşkilati mexanizmləri. /"Heydər Əliyevin elmi əsaslara söykənən dövlətçilik konsepsiyası" mövzusunda aspirant və

dissertantların elmi konfransının materialları. Bakı, “Mütərcim”, 2009, səh.165-171;
5. Məhsulun keyfiyyətinin idarə edilməsinin əsas prinsipləri. /“Azərbaycan Texniki Universitetinin professor-müəllim heyətinin və aspirantların 54-cü elmi-texniki və tədris-metodiki” konfransının materialları. II hissə, Bakı, “Təhsil”, 2009, səh. 268-270;
6. Azərbaycan Respublikasında məhsulun (işin) keyfiyyətin yüksəldilməsi siyasəti və onun reallaşdırılması tədbirləri. //Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri. İqtisadiyyat seriyası. №3 – 2010, Bakı-2010, səh.14-19;
7. Azərbaycan Respublikasında məhsulun (işin) keyfiyyətinin yüksəltmək üçün görülən tədbirlər və onların əhəmiyyəti (/“Qlobal maliyyə böhranı və dövlət idarəetmə sistemində antiböhran siyasət: dünya təcrübəsi və azərbaycan modeli” mövzusunda beynəlxalq elmi-praktiki konfransın (Bakı-Azərbaycan, 04 iyun 2010) materialları, “RS Poliqraf”, 2010, səh.320-323;
8. Məhsulun keyfiyyətinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi məsələləri. /“Heydər Əliyevin Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu strategiyası” mövzusunda aspirant və dissertantların elmi konfransının materialları. Bakı,“Mütərcim”, 2011, səh.127-133;
9. İSO 9000 standartlar kompleksinin Azərbaycanda tətbiqi: əsas nailiyyətlər və perspektivlər. /Doktorantların və gənc tədqiqatçıların XVI Respublika elmi konfransının materialları. I hissə, Bakı, 2012, “Müəllim”, səh.276-279;
10. Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin idarəedilməsi siyasəti. /“Səmərəli dövlət idarəçiliyi: zamanın çağrışları” mövzusunda beynəlxalq elmi konfransın (Bakı, 05-06 dekabr 2011) materialları. Bakı, 2012, “Elm və Təhsil”, səh.300-304;
11. Политика продовольственной безопасности в Азербайджане и механизмы ее реализации //“Инвестиції: практика та досвід” jurnalı, Украина, «ДКС Центр», 2012, səh.63-65;
12. Оптимизация системы управления качеством промышленной продукции. /“Heydər Əliyevin dövlətçilik irsi və müstəqil Azərbaycanın inkişaf modeli” mövzusunda doktorant və dissertantların elmi konfransının materialları. Bakı, “Mütərcim”, 2012, səh.199-203;
13. Azərbaycanın yeyinti sənayesinin müasir vəziyyəti və inkişaf

perspektivləri. /"Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi" mövzusunda beynəlxalq elmi-praktiki konfransın (Bakı, 27-28 iyun 2012) materialları. Bakı, "Kooperasiya" nəşriyyatı, 2012, səh. 333-335;

14. Qida təhlükəsizliyi probleminin həllində müasir idarəetmə sistemlərinin rolu. /Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmiş "Azərbaycan iqtisadiyyatının aktual problemləri" mövzusunda elmi-praktiki konfransın materialları. Bakı, "Avropa", 2013, səh.150-156;
15. Gıda güvenliği: mevcut durum, sorunlar, çözüm yolları. Türkiyədə "Türk Tarım ve Doğa Bilimleri" jurnalında (çapdadır);
16. Azərbaycanda yeyinti sənayesinin ixrac yönümlü inkişafı məsələləri.// Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri. İqtisadiyyat seriyası. №2, 2012, 0,6 ç.v.(çapdadır).

**Нушаба Али кызы Нуриева**

## Основные направления совершенствования управления качеством продукции пищевой промышленности

### Резюме

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

**Во введении** обоснованы актуальность темы диссертации, степень ее изученности, определены цель и задачи, объект и предмет, научная новизна и практическая значимость работы, методология и информационная база.

В первой главе диссертации **«Теоретико-методологические основы определения и управления качеством продукции в условиях рыночной экономики»** раскрыта сущность, обоснованы особенности определения и необходимость повышения качества в условиях рыночной экономики. В этой главе также исследованы исторические формы подходов к управлению качеством, стандарты и особенности их внедрения, изучен опыт зарубежных стран в области управления качеством и показаны возможности их применения в Азербайджане.

Во второй главе **«Анализ современного состояния управления качеством и развития пищевой промышленности»** анализирована и дана оценка уровня развития и отраслевой структуры пищевой промышленности Азербайджана, мероприятий по повышению качества продукции, исследованы состояние контроля качества на крупных предприятиях пищевой промышленности и выявлены существующие недостатки в этой области.

В третьей главе диссертации «**Направления совершенствования управления качеством продукции и перспективы развития пищевой промышленности»** определены основные направления развития пищевой промышленности и производства продовольственной продукции в экономических районах Респуб-

лики, выдвинуты предложения в направлении усиления контроля качества и обеспечения безопасности продовольственных продуктов, более широкого внедрения стандартов на предприятиях и совершенствования управления качеством.

**В заключении** отражены основные результаты исследования, выдвинуты конкретные предложения и рекомендации

**Nuriyeva Nushaba Ali**

## Main directions of improvement of quality management in the food industry production

### Summary

Dissertation consists of introduction, three chapters, conclusion and a list of literature used within the research.

The relevance of the topic of the dissertation and the degree of the research on that topic are substantiated in the **introduction**. The goals and objectives, object and subject, scientific novelty and practical importance of the dissertation, methodology and information base are also determined in the introduction.

**The first chapter** of the dissertation – "Theoretical and methodological basis for the definition and management of production quality in a market economy" – reveals the essence of the quality and substantiate the features of definition of quality and the need to improve the quality in a market economy. This chapter explores also historical forms of approach to the quality management, standards and features of their implementation and research the experience of foreign countries in the quality management and demonstrates their applicability in Azerbaijan.

**The second chapter** titled "Analysis of the current state of quality management and development of the food industry" analyses and gives the estimation of the level of development and sectorial structure of Azerbaijan's food industry and the measures to improve product quality. The state control over quality in large food processing plants is investigated and the gaps in this area are also identified in this chapter.

**The third chapter** of the Dissertation - "Directions for improving product quality management and prospects of the food industry development" – determines the main directions of the development of

food industry and production in economical regions of the republic, suggests proposals aimed to strengthen quality control and to ensure food safety, to wider adopt standards for enterprises and to improve the quality management.

The author reflects the main results of the research findings and suggests the concrete proposals and recommendations in the conclusion.

AMEA-nın mətbəəsində çap olunub
Tiraj-100

**НАЦИОНАЛЬНАЯ АК УК АЗЕРБАЙДЖАНА**
**ИНСТІ МИКИ**

*На правах рукописи*

**НУШАБА АЛИ КЫЗЫ НУРИЕВА**

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ УПРАВЛЕНИЯ КАЧЕСТВОМ ПРОДУКЦИИ ПИЩЕВОЙ ПРОМЫШЛЕННОСТИ

**Специальность:** 5312.01- Отраслевая экономика

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание научной степени
доктора философии по экономике

**Баку – 2014**